HƏYATIN YAŞAM SIĞORTASI ÜZRƏ ÜMUMİ ŞƏRTLƏR TOPLUSU

(işəgötürənlər üçün)

Bu Həyatın Yaşam Sığortası üzrə Ümumi Şərtlər Toplusu (bundan sonra – ÜŞT) "PAŞA Həyat Sığorta" ASC (bundan sonra – Sığortaçı) tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyinə və "Həyatın Yaşam Sığortası Qaydaları"na uyğun olaraq hazırlanmışdır.

Bu ÜŞT həyatın yaşam sığortası məhsulu (bundan sonra – HYS) üzrə münasibətlərə daxil olmaq istəyən və işəgötürən qismində çıxış edən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərə və hüquqi şəxslərə (bundan sonra – I Sığortalı) münasibətdə tətbiq edilən standart şərtləri müəyyən edir.

Bu ÜŞT-nin məqsədləri üçün Sığortaçı və I Sığortalı ayrı-ayrılıqda "Tərəf", birlikdə isə "Tərəflər" adlandırılır.

Bu ÜŞT HYS-yə qoşulma qaydalarını, məhsulun tətbiqi şərtlərini, Tərəflər arasında əməkdaşlığın ümumi prinsiplərini, məlumat mübadiləsinin aparılması qaydalarını, Kuratorun səlahiyyətlərini və HYS məhsulunun tətbiqi ilə bağlı digər məsələləri tənzimləyir.

I BÖLMƏ.
ÜMUMİ MÜDDƏALAR

1. ƏSAS ANLAYIŞLAR

1.1. ÜŞT-də istifadə edilmiş anlayışlar aşağıdakı mənaları bildirir:

Həyatın Yaşam Sığortası üzrə Ümumi Şərtlər Toplusu (ÜŞT) – HYS-nin tətbiqi məqsədilə Sığortaçı və I Sığortalı arasında yaranan münasibətlərin ümumi əsaslarını, HYS-yə qoşulma qaydalarını, Tərəflərin hüquq və öhdəliklərini tənzimləyən şərtlər toplusu;

Sığortaçı – Azərbaycan Respublikasının qanunvericiliyinə, müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş 087786 saylı lisenziyaya və öz nizamnaməsinə əsasən sığorta fəaliyyəti göstərən "PAŞA Həyat Sığorta" ASC;

I Sığortalı – II Sığortalının / Sığorta olunanın işəgötürəni olan, Sığortaçı ilə bağlanılmış həyatın yaşam sığortası müqaviləsi üzrə I Sığortalı qismində çıxış edən fiziki və ya hüquqi şəxs;

II Sığortalı / Sığorta olunan – I Sığortalının işçisi olan, Sığortaçı və işəgötürən (I Sığortalı) ilə bağlanılmış həyatın yaşam sığortası müqaviləsi üzrə II Sığortalı / Sığorta olunan qismində çıxış edən fiziki şəxs.

Üçtərəfli həyatın yaşam sığortası müqaviləsi – həyatın yaşam sığortası məhsulu üzrə Sığortaçı, işəgötürən və işçi arasında imzalanan üçtərəfli həyatın yaşam sığortası şəhadətnaməsi;

İkitərəfli həyatın yaşam sığortası müqaviləsi – həyatın yaşam sığortası məhsulu üzrə sığortaçı və işəgötürən (və ya işçi) arasında imzalanan ikitərəfli həyatın yaşam sığortası şəhadətnaməsi;

Sığorta şəhadətnaməsi / HYS şəhadətnaməsi – sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən, Sığortaçı tərəfindən sığortalıya və (və ya) sığorta olunana verilən sənəd;

Sığorta haqqı – risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta müqaviləsi ilə nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləği;

Ümumi sığorta haqqı – HYS üzrə müvafiq sığorta müqaviləsi əsasında II Sığortalının / Sığorta olunanın xeyrinə Sığortaçıya ödənilməli olan sığorta haqlarının ümumi cəmi məbləği;

Sığorta məbləği – sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin sığorta müqaviləsi ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan son həddi;

Sığorta hadisəsi – sığorta şəhadətnaməsinə və Sığortaçının həyatın yaşam sığortası qaydalarına əsasən sığorta ödənişinin faydalanan şəxsə ödənilməsi üçün əsas olan 1) *sığorta müddəti ərzində baş verən sığorta olunanın ölümü* və 2) *sığorta olunanın sığorta təminatının bitmə tarixinə qədər yaşaması* halları.

Faydalanan şəxs – sığorta şəhadətnaməsinə uyğun olaraq sığorta ödənişi verilməli olan şəxs;

Sığorta ödənişi – sığorta hadisəsi baş verdikdə sığorta şəhadətnaməsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası;

Sığorta riski – sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan hadisənin baş verməsi və ya halın yaranması ehtimalı, həmçinin bu ehtimala qarşı sığortaçının üzərinə götürdüyü öhdəlik;

Sığorta qaydaları – Sığortaçının rəsmi saytında (https://pasha-life.az/) yerləşdirilmiş ÜŞT-nin təsdiq edildiyi tarixə qüvvədə olan "Həyatın Yaşam Sığortası Qaydalar"ı;

HYS yığım əsaslı layihələr – HYS üzrə formalaşan yığım məbləğindən və/və ya həmin yığım üzrə hüquqlardan müəyyən tərəfdaş qurumlarla əməkdaşlıq çərçivəsində istifadə edilməsinə, o cümlədən müvafiq məhsul, xidmət, vauçer, kredit, daşınmaz əmlak və ya digər imkanlardan yararlanmağa şərait yaradan, Sığortaçının müştəriyönümlü siyasəti və təşəbbüsləri əsasında tərəfdaşlarla formalaşdırılan layihə, proqram, kampaniya və ya digər əməkdaşlıq mexanizmləri;

Şəxsi kabinet – Sığortaçı tərəfindən hazırlanmış, Sığortalıya və Sığorta olunana fərdi identifikasiya əsasında sığorta müqavilələri ilə tanış olmaq, onları əldə etmək, sığorta müqavilələri üzrə müvafiq əməliyyatları elektron qaydada və real vaxt rejimində həyata keçirmək, habelə Sığortaçı tərəfindən göndərilən bildirişləri, məlumatları, yenilikləri, kampaniyaları və digər məlumat xarakterli müraciətləri əldə etmək imkanı verən elektron platforma;

Mobil tətbiqetmə – Sığortaçının müstəsna mülkiyyətində olan, Sığortalıya və sığorta olunana fərdi identifikasiya əsasında sığorta müqavilələri ilə tanış olmaq, onlar barədə məlumat əldə etmək, sığorta müqavilələri üzrə müvafiq əməliyyatları elektron qaydada və real vaxt rejimində həyata keçirmək, habelə Sığortaçı tərəfindən göndərilən bildirişləri, məlumatları, yenilikləri, kampaniyaları və digər məlumat xarakterli müraciətləri əldə etmək imkanı verən "PASHA Life APP" adlı mobil tətbiqetmə;

Elektron sənəd – elektron formada təqdim edilən və elektron imza ilə təsdiq olunmuş sənəd;

Elektron imza – imzalayan şəxsin identifikasiyasına və elektron formada tərtib edilmiş sənədin həmin şəxs tərəfindən imzalanmasının təsdiqinə xidmət edən elektron məlumat;

1.2. Bu ÜŞT-də "I Sığortalı" və "II Sığortalı" ayrıca göstərilmədiyi halda, "Sığortalı" ifadəsi kontekstdən asılı olaraq I Sığortalını və/və ya II Sığortalını ayrı-ayrılıqda və ya birlikdə ifadə edir.

1.3. Bu ÜŞT-də istifadə edilmiş, lakin bu maddədə ayrıca izahı verilməmiş hər hansı söz, ifadə, anlayışvə ya terminlər Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktlarında müəyyən edilmiş mənalarda tətbiq edilir. Müvafiq qanunvericilik aktlarında onların mənası müəyyən edilməyibsə, bu zaman Azərbaycan dilinin izahlı lüğətində olan mənalar əsas götürülür.

1.4. Bu ÜŞT-də istifadə edilmiş anlayış və ifadələr ÜŞT-nin mətninin daha anlaşıqlı olması məqsədilə verilmişdir və qanunvericilikdə nəzərdə tutulmuş anlayışların məzmununu dəyişdirən, genişləndirən

və ya məhdudlaşdıran qaydada şərh edilə bilməz. Hüquqi şərh zamanı anlayışlar müvafiq qanunvericilik sahələrində qəbul edilmiş mənada tətbiq edilir.

2. MƏQSƏD VƏ TƏTBİQ SAHƏSİ

2.1. Bu ÜŞT Sığortaçı və işəgötürənlər arasında HYS məhsulu üzrə əməkdaşlığın ümumi əsaslarını müəyyən edir, müqavilələrin inzibatçılığı ilə bağlı təşkilati, texniki və əməliyyat məsələlərini, o cümlədən məlumat və sənədlərin mübadiləsini, şəxsi kabinetdən və mobil tətbiqdən istifadəni, tərəflər üzrə məsul şəxslərin və kuratorların müəyyən edilməsini, tərəflər arasında əlaqələndirmənin həyata keçirilməsini, habelə əməkdaşlıq çərçivəsində yaranan digər təşkilati və texniki məsələləri tənzimləyir.

2.2. Bu ÜŞT özlüyündə sığorta müqaviləsi hesab edilmir və hər hansı şəxs üçün avtomatik sığorta təminatı yaratmır. Sığorta təminatı yalnız həyatın yaşam sığortası şəhadətnaməsi əsasında yaranır. Sığorta təminatının həcmi, sığorta məbləği, sığorta haqqı, sığorta müddəti, sığorta olunan şəxslər və digər xüsusi şərtlər HYS şəhadətnaməsi ilə müəyyən edilir.

II BÖLMƏ.
HYS ÜZRƏ ƏMƏKDAŞLIĞIN ŞƏRTLƏRİ

3. ÜMUMİ SIĞORTA ŞƏRTLƏRİ

3.1. Sığortaçı müvafiq HYS şəhadətnaməsi üzrə razılaşdırılmış sığorta haqqı müqabilində sığorta şəhadətnaməsi üzrə sığorta hadisəsi baş verdiyi halda faydalanan şəxslərə sığorta ödənişinin həyata keçirilməsinə təminat verir.

3.2. HYS üzrə I Sığortalı qismində Azərbaycan Respublikasında fəaliyyət göstərən, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasının və ya xarici dövlətin qanunvericiliyinə uyğun olaraq yaradılmış hüquqi şəxslər, onların Azərbaycan Respublikasında fəaliyyət göstərən filial və nümayəndəlikləri, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslər çıxış edə bilərlər.

3.3. Sığorta şəhadətnaməsi Sığortaçının rəsmi internet səhifəsində (www.pasha-life.az) yerləşdirilmiş və müvafiq HYS şəhadətnaməsinin bağlandığı tarixdə qüvvədə olan "Həyatın Yaşam Sığortası Qaydalar"ı əsasında tərtib edilir. Həmin Qaydalar HYS məhsulunun əsaslandığı qayda və şərtləri müəyyən edən və sığorta qanunvericiliyinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə razılaşdırılmaqla qəbul edilmiş sənəddir.

3-1. DÖVLƏT SEKTORUNA AİD SIĞORTAEDƏNLƏR ÜZRƏ XÜSUSİ ŞƏRTLƏR

3-1.1. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə 16 dekabr 2024-cü il tarixli, 101-VIIQD nömrəli AR Qanunu və Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişiklik edilməsi haqqında 16 dekabr 2024-cü il tarixli, 98-VIIQD nömrəli AR Qanununa (bundan sonra birgə "Qanunvericilikdə dəyişiklik" adlandırılacaq) əsasən, qeyri-dövlət sektoruna aid edilməyən sığortaedənlərə münasibətdə 2025-ci il yanvarın 1-dən sonra bağlanmış həyatın yığım sığortası müqavilələri üzrə ödənilən sığorta haqlarına vergi və sosial sığorta güzəştləri tətbiq edilmir.

3-1.2. Qanunvericiliyə dəyişikliklərə uyğun olaraq, qeyri-dövlət sektoruna aid edilməyən sığortaedənlərə münasibətdə vergi və sosial sığorta güzəştləri aşağıdakı keçid şərtləri nəzərə alınmaqla tətbiq edilir:

(i). 2025-ci il yanvarın 1-dək 3 (üç) ildən az olmayan müddətə bağlanmış və həmin tarixədək 3 (üç) illik müddəti tamam **olmamış** HYS müqavilələri üzrə güzəştlər **yalnız** həmin müqavilələrin bağlandığı tarixdən etibarən 3 (üç) il ərzində ödənilən sığorta haqlarına tətbiq edilir;

(ii). 2025-ci il yanvarın 1-dək 3 (üç) ildən az olmayan müddətə bağlanmış və həmin tarixədək 3 (üç) illik müddəti tamam **olmuş** HYS müqavilələri üzrə güzəştlər **yalnız** 2025-ci il yanvarın 1-dək ödənilmiş sığorta haqlarına tətbiq edilir.

3-1.3. Bu ÜŞT qeyri-dövlət sektoruna aid edilməyən sığortaedənlərə münasibətdə yalnız 2025-ci il yanvarın 1-dək bağlanmış və həmin tarixədək 3 (üç) illik müddəti tamam olmamış HYS müqavilələrinin davam etdirilməsi və həmin müqavilələr üzrə əməkdaşlıq münasibətlərinin ümumi əsaslarının tənzimlənməsi məqsədilə tətbiq edilir.

3-1.4. Qeyri-dövlət sektoruna aid edilməyən sığortaedənin bu ÜŞT-yə qoşulması özlüyündə hər hansı HYS müqaviləsi üzrə vergi və ya sosial sığorta güzəştindən istifadə hüququ yaratmır. Güzəştlər yalnız qanunvericilikdə müəyyən edilmiş tələblərə cavab verən HYS müqavilələri üzrə və qanunvericiliklə müəyyən edilmiş müddət ərzində tətbiq edilir.

4. ÜŞT ÇƏRÇİVƏSİNDƏ HÜQUQ VƏ ÖHDƏLİKLƏR

4.1. I Sığortalının hüquq və öhdəlikləri:

4.1.1. Öz əməkdaşlarının adı, soyadı, atasının adı, təvəllüdü, ünvanı, istifadə etdiyi telefon nömrələri və digər zəruri məlumatları barədə siyahını Sığortaçıya təqdim etmək;

4.1.2. Sığorta haqlarını Sığorta şəhadətnaməsində nəzərdə tutulmuş müddətdə və miqdarda Sığortaçının bank hesabına köçürmək;

4.1.3. Sığorta hadisəsinin baş verməsi barədə hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində Sığortaçını yazılı şəkildə məlumatlandırmaq;

4.1.4. Sığortaçıya onun tələbi ilə II Sığortalı / Sığorta olunan və ya faydalanan şəxs barədə düzgün məlumat vermək;

4.1.5. Sığortalılar tərəfindən sığorta şəhadətnamələrinin, sığortalanma barədə müraciətlərin, həmçinin digər formaların (rezidentliyin müəyyənləşdirilməsi üçün nəzərdə tutulan özünüqiymətləndirmə anketləri, elektron hökumətdən müvafiq məlumatların sorğu edilməsi üçün olan ərizə formaları, fəaliyyət istiqaməti, sektor aidiyyəti, iqtisadi fəaliyyət növü barədə sorğu formaları və s.) doğru şəkildə doldurulmasına, imzalanmasına və Sığortaçıya təqdim edilməsinə nəzarət etmək;

4.1.6. Sığortaçıya və ya onun nümayəndəsinə sığorta hadisəsi ilə əlaqəsi olan məlumatı sərbəst əldə etmək imkanı yaratmaq;

4.1.7. Sığorta haqları üzrə açıqlamanı tam, düzgün və vaxtında təqdim etmək;

4.1.8. Bu ÜŞT çərçivəsində əldə edilmiş məlumatların konfidensiallığını təmin etmək;

4.1.9. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan, Sığorta qaydalarından irəli gələn, bu ÜŞT və Sığorta şəhadətnaməsi ilə nəzərdə tutulmuş digər hüquq və vəzifələri yerinə yetirmək.

4.2. Sığortaçının hüquq və öhdəlikləri:

4.2.1. Sığorta hadisəsi baş verdikdə tələb olunan müvafiq sənədlərin sonuncusunun daxil olduğu tarixdən sonra 7 (yeddi) iş günündən gec olmayaraq Sığorta şəhadətnaməsində göstərilən

şəkildə sığorta ödənişini həyata keçirmək, yaxud sığorta ödənişinin verilməsindən imtina haqqında yazılı şəkildə əsaslandırılmış bildiriş təqdim etmək;

4.2.2. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqədar qanunvericiliyin tələblərinə uyğun olaraq sığortalının, sığorta olunanın, faydalanan şəxsin, benefisiar mülkiyyətçinin və səlahiyyətli nümayəndənin eyniləşdirilməsi, habelə onlar barədə əldə olunmuş eyniləşdirilmə məlumatlarının verifikasiyası üçün tədbirlər görmək, sığorta haqqının əldə olunma mənbəyi barədə şübhə yarandıqda, həmin vəsaitin mənbəyini müəyyən etmək üçün əlavə təsdiqləyici sənədlər tələb etmək, zəruri sənədlərin təqdim edilməsindən imtina edən sığortalıların əməliyyatlarından imtina etmək və ya sığorta müqaviləsinə birtərəfli qaydada xitam vermək;

4.2.3. Bu ÜŞT çərçivəsində əldə edilmiş məlumatların konfidensiallığını təmin etmək;

4.2.4. Sığorta ödənişinin verilməsi zamanı sığorta ödənişi məbləğindən ona ödənilməli olan, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq;

4.2.5. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan, Sığorta qaydalarından irəli gələn, bu ÜŞT və Sığorta şəhadətnaməsi ilə nəzərdə tutulmuş digər hüquq və vəzifələri yerinə yetirmək.

5. ŞƏXSİ KABİNET, MOBİL TƏTBİQETMƏ

5.1. Şəxsi kabinetə Sığortaçının rəsmi saytı (www.pasha-life.az), www.mylife.az saytı və Mobil tətbiqetmə vasitəsilə daxil olmaq mümkündür. Şəxsi Kabinet dedikdə mətn, təsvirlər, qrafika, loqolar, səhifə başlıqları, düymə piktoqramları, proqram təminatı, habelə proqramlaşdırma kodları və digər bütün məlumat və materiallar daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq elektron platformanın bütün məzmunu nəzərdə tutulur.

5.2. Şəxsi Kabinet və/və ya Mobil tətbiqetmə I Sığortalıya və/və ya II Sığortalı / Sığorta olunana yalnız bu ÜŞT və müvafiq HYS münasibətləri çərçivəsində istifadə məqsədilə təqdim edilir. Şəxsi Kabinet və Mobil tətbiqetmə Sığortaçının mülkiyyətindədir və onlar üzərində əqli-mülkiyyət hüquqları, habelə digər müstəsna hüquqlar Sığortaçıya məxsusdur. Bu ÜŞT-nin heç bir müddəası bu cür hüquqların I Sığortalıya, II Sığortalıya / Sığorta olunana və ya digər şəxsə ötürülməsini, verilməsini və ya satılmasını nəzərdə tutmur, eyni zamanda o mənanı ifadə edən şəkildə şərh edilə bilməz.

5.3. Sığortaçının əvvəlcədən yazılı razılığı olmadan Şəxsi Kabinet və/və ya Mobil tətbiqetmənin tam və ya hər hansı hissəsinin surətinin çıxarılması, reproduksiyası, dəyişdirilməsi, yayılması, üçüncü şəxslərə ötürülməsi, kommersiya məqsədilə istifadəsi, icarəyə verilməsi və ya bu ÜŞT-də nəzərdə tutulmuş məqsədlərdən kənar istifadə edilməsi qadağandır.

5.4. Sığortalı Şəxsi Kabinetə və/və ya Mobil tətbiqetməyə daxil olmaq üçün istifadə edilən giriş məlumatlarının, şifrə, identifikasiya və autentifikasiya vasitələrinin məxfiliyini, mühafizəsini, həmin məlumatların yalnız Sığortaçıya rəsmi qaydada bildirilmiş Kurator tərəfindən istifadə edilməsini təmin etməlidir. Sığortalı həmin məlumatları Kurator olmayan, Sığortaçıya rəsmi qaydada bildirilməmiş və ya HYS üzrə münasibətlərdə Sığortalı adından çıxış etmək səlahiyyəti olmayan hər hansı şəxsə açıqlamamalı və belə şəxslərin istifadəsinə imkan yaratmamalıdır.

5.5. Sığortaçı Şəxsi Kabinetə və/və ya Mobil tətbiqetməyə daxil olmaq, müraciətləri, təsdiqləri və digər əməliyyatları həyata keçirmək üçün əlavə autentifikasiya tələbləri müəyyən edə bilər.

5.6. Sığortalının və/və ya Kuratorun autentifikasiya məlumatlarını lazımi qaydada mühafizə etməməsi, həmin məlumatları səlahiyyəti olmayan şəxslərə açıqlaması və ya belə şəxslərin istifadəsinə şərait yaratması nəticəsində Şəxsi Kabinet və/və ya Mobil tətbiqetmə vasitəsilə həyata keçirilmiş

müraciətlər, təsdiqlər, məlumatlandırmalar və digər əməliyyatlar I Sığortalı tərəfindən həyata keçirilmiş hesab edilir və həmin əməliyyatların nəticələrinə görə I Sığortalı məsuliyyət daşıyır.

5.7. Sığortalı və/və ya Kurator Şəxsi Kabinetə və/və ya Mobil tətbiqetməyə icazəsiz giriş, giriş məlumatlarının itirilməsi, üçüncü şəxslərə məlum olması, şübhəli əməliyyat və ya təhlükəsizlik riski barədə məlumat əldə etdikdə dərhal Sığortaçını məlumatlandırmalıdır.

5.8. Sığortaçı müştəri məmnuniyyətinin, xidmət səviyyəsinin, istifadəçi təcrübəsinin, təhlükəsizlik və texniki dayanıqlığın artırılması məqsədilə Şəxsi Kabinetin və/və ya Mobil tətbiqetmənin funksionallığı, istifadə qaydası, interfeysi, təhlükəsizlik mexanizmləri, texniki imkanları və göstərilən xidmətlər/təklif edilən əməliyyatlarla bağlı dəyişikliklər etmək hüququna malikdir. Belə dəyişikliklər tərəflərin HYS üzrə qüvvədə olan sığorta müqavilələrindən irəli gələn hüquq və vəzifələrinin həyata keçirilməsinə maneə yaratmaq, habelə onların qanuni mənafelərini məhdudlaşdırmaq məqsədi daşımır.

5.9. Bu ÜŞT-nin 5.8-ci bəndi Sığortaçının Şəxsi Kabinetdə və/və ya Mobil tətbiqetmədə hər hansı dəyişiklik etmək öhdəliyi kimi şərh edilə bilməz. Sığortaçı belə dəyişikliklərin edilməsi, həcmi, müddəti və tətbiq qaydasını öz mülahizəsinə əsasən müəyyən edir.

5.10. Sığortaçı Şəxsi Kabinet və/və ya Mobil tətbiqetmənin kibertəhlükəsizliyinin, texniki dayanıqlığının və təhlükəsiz istifadəsinin təmin edilməsi məqsədilə qanunvericiliyin tələblərinə uyğun olaraq müvafiq təşkilati və texniki tədbirlər görür.

5.11. Şəxsi Kabinet və/və ya Mobil tətbiqetmə üzərindən təqdim olunan xidmətlərin təhlükəsiz, qanuni və səmərəli istifadəsini təmin etmək məqsədilə istifadə qaydaları, texniki tələblər, təhlükəsizlik prosedurları və əməliyyat mexanizmləri Sığortaçı tərəfindən müəyyən edilir və istifadəçi təcrübəsi nəzərə alınmaqla Sığortaçı tərəfindən yenilənə bilər.

5.12. Sığortaçı texniki xidmət, yenilənmə, təhlükəsizlik tədbirləri, sistem nasazlığı, kiberinsident, üçüncü tərəf xidmətlərində yaranan fasilə və ya Sığortaçının nəzarətindən kənar digər səbəblərlə əlaqədar Şəxsi Kabinetə və/və ya Mobil tətbiqetməyə çıxışı müvəqqəti məhdudlaşdıra və ya dayandıra bilər. Bu hallarda Şəxsi Kabinetdən və/və ya Mobil tətbiqetmədən istifadə zamanı müvəqqəti fasilələr, yubanmalar, ləngimələr və ya funksional məhdudiyyətlər yarana bilər.

6. ŞƏHADƏTNAMƏNİN TƏSDİQLƏNMƏSİ VƏ ƏMƏLİYYATLARIN APARILMASI QAYDALARI

6.1. Sığorta şəhadətnaməsi və onun əlavələri (qoşmaları) aşağıdakı üsullardan biri ilə təsdiq edildikdə Tərəflər üçün məcburi hesab olunur və şəhadətnamədə, müvafiq əlavədə (qoşmada) onun qüvvəyə minməsi üçün başqa tarix müəyyən edilmədiyi halda, həmin sənəd təsdiq edildiyi tarixdən qüvvəyə minmiş hesab olunur.

6.1.1. Sığortaçı tərəfindən:

- Əl imzası və möhür ilə;
- Əl imzası və möhürün skan və ya digər vasitə ilə surətinin çıxarılması yolu ilə;
- Elektron imza ilə.

6.1.2. Sığortalı tərəfindən:

- Əl imzası və möhür ilə (və ya əl imzası və möhürün skan və ya digər vasitə ilə surətinin çıxarılması yolu ilə)
- Elektron imza ilə;

- Şəxsi Kabinet və ya Mobil tətbiqetmə vasitəsilə təsdiqləməklə;

- Sığorta müqaviləsi üzrə nəzərdə tutulmuş sığorta haqqının ödənilməsi ilə.

6.2. Sığortalının Şəxsi kabinet və Mobil tətbiqetmə vasitəsilə yerinə yetirdiyi bütün əməliyyatlar şəxsən onun tərəfindən həyata keçirilmiş hesab edilir. Sığortalı təsdiq edir ki, Mobil tətbiqetmə və Şəxsi Kabinetdə təsdiqlədiyi bütün sənədlərin/məlumatların hüquqi etibarlılığını tanıyır. Sığortalı tərəfindən edilən bütün təsdiqləmələr şəxsi imzanın analoqu kimi nəzərə alınır, onun razılığını ifadə edir və Sığortalı Şəxsi Kabinet və Mobil tətbiqetmə vasitəsilə həyata keçirdiyi bütün əməliyyatlara görə məsuliyyət daşıyır.

6.3. I Sığortalı "Həyatın Yaşam Sığortası üzrə Ümumi Şərtlərin Qəbuluna dair Bəyanat"ı (bundan sonra – Bəyanat) imzalamaq və Sığortaçıya təqdim etməklə öz razılığını bildirir ki, ona aid Sığortaçıda olan, sığorta sirri hesab edilən məlumatlar sığorta şəhadətnaməsi üzrə əməliyyatların həyata keçirilməsi məqsədilə digər şəxslərə ötürülə, həmçinin Şəxsi Kabinetdə və Mobil tətbiqetmədə yerləşdirilə bilər.

6.4. Sığorta müqaviləsi elektron sənəd formasında bağlandığı halda sığorta haqqının ödənilməsi Sığortalıların müvafiq sığorta qaydaları və sığorta müqaviləsinin şərtləri ilə tanış olmasını, həmin qaydalar və şərtlərlə razılığını, həmçinin sığorta müqaviləsinin bağlanması faktını təsdiqləyir.

6.5. I Sığortalı ilə II Sığortalı / Sığorta olunan arasında əmək münasibətlərinə xitam verildiyi təqdirdə, I Sığortalı dərhal Sığortaçını yazılı şəkildə məlumatlandırmalıdır. Əgər I Sığortalı əmək münasibətlərinə xitam veriləcəyi barədə əvvəldən xəbərdar olarsa, xəbərdar olduğu tarixdən Sığortaçını bu barədə məlumatlandırmalıdır.

6.6. Sığorta müqaviləsi üzrə faydalanan şəxs II Sığortalı / Sığorta olunan tərəfindən təyin edilir. II Sığortalı / Sığorta olunan istənilən şəxsi faydalanan şəxs kimi təyin edə bilər.

6.7. Sığorta müqaviləsi üzrə baş vermiş sığorta hadisəsi ilə əlaqədar sığorta ödənişi, Sığortaçıya hadisənin araşdırılması üçün lazım olan sonuncu sənədin daxil olduğu tarixdən 7 (yeddi) iş günü ərzində, faydalanan şəxslərin ardıcıllığı üzrə birdəfəlik qaydada ödənilir.

6.8. Sığorta müqaviləsinə onun qüvvədə olduğu müddətdə qanunvericiliyə və Sığorta qaydalarının şərtlərinə uyğun əlavə və dəyişikliklər edilə bilər. Sığorta müqaviləsinə əlavə və dəyişikliklərin edilməsi qaydası sığorta müqaviləsi ilə müəyyən edilir. Belə əlavə və dəyişikliklər sığorta müqaviləsinin tərkib hissəsini təşkil edir.

6.9. Sığorta qaydalarının tələblərinə riayət olunması və həmin tələblərə zidd olmaması şərtilə, sığorta müqaviləsində Sığorta qaydalarına və qüvvədə olan qanunvericiliyə zidd olmayan xüsusi şərtlər müəyyən oluna bilər.

6.10. Sığorta qaydaları və müvafiq HYS şəhadətnaməsinin tələbləri nəzərə alınmaqla, sığorta haqqının artırılması barədə müraciət daxil olduqda və həmin müraciətin Sığortaçı tərəfindən təsdiqlənməsi mümkün olduqda, yaxud sığortalanmış risklərdə dəyişikliklər baş verdikdə, Sığortaçı II Sığortalının / Sığorta olunanın tibbi müayinədən keçməsini, müvafiq sənədləri doldurmasını və anderraytinq şərtlərinə əməl etməsini tələb edə bilər.

6.11. Sığorta şəhadətnaməsi üzrə Sığortalı tərəfindən ödənilən vəsaitlər xarici valyutada göstərildiyi hallarda, ödənişlər Sığortalı tərəfindən ödənişin həyata keçirildiyi gün üçün qüvvədə olan Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi məzənnəsi əsasında Azərbaycan manatı ilə yerinə yetirilməlidir. Bu ödənişlər Sığortaçı tərəfindən Azərbaycan manatı ilə qəbul olunur və müvafiq HYS şəhadətnaməsinin müddəaları nəzərə alınmaqla, Sığortaçı tərəfindən müvafiq xarici valyutada tanınır.

6.12. Müvafiq Sığorta şəhadətnaməsi üzrə Sığortaçı tərəfindən həyata keçirilən bütün ödənişlər (sığorta ödənişi, qaytarılan məbləğ və s.) ödənişin icra edildiyi günə olan Azərbaycan Respublikasının

Mərkəzi Bankının rəsmi məzənnəsi əsasında manat ekvivalentində ödənilir. Sığorta müddəti başa çatdıqda sığorta ödənişi, habelə sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi hallarda qaytarılan məbləğ, tələb olunan bütün sənədlər Sığortaçıya təqdim edildiyi tarixdən etibarən 7 (yeddi) iş günü ərzində ödənilir.

6.13. I Sığortalı öz əməkdaşları barədə bu ÜŞT-nin 4.1.1-ci yarımbəndində qeyd edilən məlumatları Bəyanatı imzaladıqdan sonra 7 (yeddi) gün ərzində siyahı şəklində Sığortaçıya təqdim etməlidir. Sığortaçı bu ÜŞT üzrə Tərəf olduğu müddət ərzində I Sığortalıya siyahının yenidən təqdim edilməsi ilə bağlı sorğu verə bilər.

6.14. Sığorta qaydaları, Sığorta şəhadətnaməsi və bu ÜŞT-nin şərtləri arasında ziddiyyət və ya uyğunsuzluq yarandıqda, üstün hüquqi qüvvə ardıcıllığı müvafiq olaraq Sığorta qaydaları, Sığorta şəhadətnaməsi və bu ÜŞT olmaqla müəyyən edilir. Tərəflər bu ÜŞT-nin hər hansı müddəasını əsas gətirməklə Sığorta qaydalarının və Sığorta şəhadətnaməsinin etibarsızlığını və ya tətbiq edilməməsini iddia edə bilməz.

6.15. Sığortalının sığorta haqqının geri qaytarılması, sığorta ödənişinin verilməsi, sığorta müqaviləsinə xitam verilməsi ilə bağlı müraciətləri daxil olmaqla, lakin bunlarla məhdudlaşmayaraq sığorta münasibətlərinin tənzimlənməsi ilə bağlı Sığortaçıya təqdim etdiyi ərizə, məktub, bildiriş və digər müraciət sənədlərinin skan edilmiş surətləri hüquqi etibarlı hesab edilir. Bu sənədlər Sığortalının müvafiq HYS şəhadətnaməsində, Şəxsi Kabinetdə və/və ya Mobil tətbiqetmədə qeyd etdiyi elektron poçt ünvanı, mobil telefon nömrəsi, mobil rabitə və mesajlaşma vasitələri (whatsapp, telegram və s.), habelə Sığortaçıya bildirdiyi digər rəsmi əlaqə vasitələri üzərindən təqdim edildikdə, əl imzası ilə imzalanmış və kağız daşıyıcıda Sığortaçıya təqdim edilmiş fiziki nüsxələrə bərabər tutulur, eyni hüquqi qüvvəyə malik olur və eyni hüquqi nəticələr doğurur.

7. KURATOR

7.1. I Sığortalı HYS üzrə münasibətlərdə Sığortaçı ilə kommunikasiyanın qurulması, məlumat mübadiləsinin aparılması, müraciətlərin təqdim edilməsi, təsdiqlərin verilməsi və müvafiq əməliyyatların həyata keçirilməsi məqsədilə məsul şəxs təyin edir. Həmin şəxs bu ÜŞT-nin məqsədləri üçün "Kurator" adlandırılır. Kurator barədə məlumatlar I Sığortalı tərəfindən Bəyanatın Cədvəl 1-də göstərilir və Bəyanatın imzalanması ilə həmin şəxsin Kurator qismində təyin edildiyi və müvafiq səlahiyyətlərə malik olduğu təsdiq edilir.

7.2. I Sığortalı təsdiq edir ki, Kuratorun Şəxsi Kabinet və/və ya Mobil tətbiqetmə vasitəsilə etdiyi bütün təsdiqlər və əməliyyatlar üzrə səlahiyyətlidir. I Sığortalı Kurator tərəfindən təsdiq edilən istifadəçi razılaşması, məxfilik siyasəti daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq bütün sənədlərin, məlumatların hüquqi etibarlılığını tanıyır, bu təsdiqlər/əməliyyatlar I Sığortalının iradə ifadəsini, razılığını, eləcə də sənədlərlə/məlumatlarla tanış olmasını bildirir. Kurator tərəfindən edilən bütün təsdiqləmələr I Sığortalının şəxsi imzasının analoqu kimi nəzərə alınır, onun razılığını ifadə edir və I Sığortalı bu əməliyyatlara görə məsuliyyət daşıyır.

7.3. Kurator Şəxsi Kabinet və Mobil tətbiqetməyə daxil olmaq üçün istifadə etdiyi giriş məlumatlarını, şifrələri, identifikasiya və autentifikasiya vasitələrini məxfi saxlamalı, mühafizə etməli və onların üçüncü şəxslərə açıqlanmasına və ya istifadəsinə yol verməməlidir.

7.4. Kurator dəyişdirildikdə, Kuratorun səlahiyyətlərinə və ya əmək (və ya mülki-hüquqi) müqaviləsinə xitam verildikdə I Sığortalı yeni Kurator barədə məlumatları Sığortaçıya yazılı qaydada təqdim etməlidir. Yeni Kurator barədə məlumatlar təqdim edildikdən sonra Sığortaçı tərəfindən öz daxili sistemində müvafiq düzəlişlər aparılır. Tərəflər razılaşırlar ki, bu cür məlumatlandırma bu ÜŞT-də

nəzərdə tutulmuş qaydada həyata keçirilməsindən sonra Kurator dəyişikliyi ilə bağlı Bəyanatın dəyişdirilməsinə və ya hər hansı əlavə sənədin tərtib edilməsinə zərurət yoxdur.

8. SIĞORTA HAQLARI ÜZRƏ AÇIQLAMA

8.1. I Sığortalı tərəfindən ümumi sığorta haqları ödənildikdə, həmin vəsaitlərin müvafiq sığorta müqavilələri üzrə düzgün tanınmasını təmin etmək məqsədilə, I Sığortalı ödənişin aid olduğu hər bir sığortaolunanın məlumatını və uyğun sığorta haqqı məbləğini (manat və/və ya xarici valyuta ifadəsində) əks etdirən təfsilatlı açıqlamanı (bundan sonra - Açıqlama) ödənişin həyata keçirildiyi tarixdə Sığortaçıya təqdim etməlidir.

8.2. Texniki və ya digər əsaslandırılmış səbəblərdən Açıqlamanı I Sığortalı ödəniş anında təqdim edə bilmədikdə, ən geci 3 (üç) iş günü ərzində Sığortaçıya təqdim olunmasını təmin etməlidir.

8.3. I Sığortalı tərəfindən onun tərəf kimi çıxış etdiyi bütün sığorta müqavilələri üzrə ödənilməsi nəzərdə tutulan məbləğ tam şəkildə ödənilmədikdə və/və ya müvafiq Açıqlama tam şəkildə təqdim edilmədikdə, Sığortaçı yalnız Açıqlaması təqdim olunmuş sığorta müqavilələri üzrə daxil olmuş vəsaiti qəbul etmək və tanımaq hüququna malikdir. Açıqlama təqdim edilmədiyi hallarda, Sığortaçı daxil olmuş vəsaiti emal etməmək və ya öz mülahizəsinə əsasən, yalnız valyuta risklərinin azaldılması məqsədilə zəruri hesab etdiyi qaydada, xarici valyutada bağlanmış sığorta müqavilələrinə üstünlük verməklə, həmin vəsaiti müvəqqəti olaraq tanımaq hüququnu özündə saxlayır.

8.4. Açıqlamanın təqdim olunmaması nəticəsində Sığortaçı tərəfindən ödənilmiş vəsaitlərin aid olduğu sığorta müqavilələrinin vaxtında və düzgün müəyyənləşdirilməsi mümkün olmadıqda, bu müddət ərzində baş verə biləcək məzənnə dəyişiklikləri (o cümlədən devalvasiya və digər valyuta riskləri) nəticəsində yaranan hər hansı fərqlərə və ya mənfi maliyyə nəticələrinə görə məsuliyyət tam şəkildə I Sığortalının üzərinə düşür.

9. SIĞORTA MÜQAVİLƏSİNƏ (ŞƏHADƏTNAMƏSİNƏ) VAXTINDAN ƏVVƏL XİTAM VERİLMƏSİ

9.1. Sığorta qaydalarına, Sığorta şəhadətnaməsinə və qanunvericiliyin tələblərinə uyğun olaraq sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilə bilər.

9.2. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, I Sığortalı 15 (on beş) iş günü ərzində Sığortaçıya sığorta müqaviləsinin qüvvədə olduğu hər bir ay üzrə I Sığortalı və II Sığortalının ödədiyi sığorta haqqı və həmin sığorta haqlarına münasibətdə vergi və sosial sığorta qanunvericiliyinə uyğun olaraq güzəştlər tətbiq edildiyi təqdirdə, həmin güzəştlərdən istifadə həcmini özündə əks etdirən arayış (bundan sonra - İşəgötürən arayışı) təqdim etməlidir. I Sığortalı bu məlumatların düzgünlüyünə görə məsuliyyət daşıyır.

9.3. Müvafiq qanunvericilik aktlarının tələbləri nəzərə alınmaqla, Sığortaçı tərəfindən İşəgötürən arayışında təqdim edilmiş məlumatlara əsasən, müvafiq HYS şəhadətnaməsində təsbit edilmiş qaydada xitam prosesi həyata keçirilir.

III BÖLMƏ.
YEKUN MÜDDƏALAR

10. MƏLUMAT VƏ SƏNƏD MÜBADİLƏSİ QAYDASI

10.1. Bu ÜŞT üzrə sənədlərin, bildirişlərin, müraciətlərin və digər məlumatların ötürülməsi, verilməsi, göndərilməsi və ya təqdim edilməsi Şəxsi Kabinet, Mobil tətbiqetmə və/və ya Tərəflər tərəfindən rəsmi əlaqə vasitəsi kimi bildirilmiş elektron poçt ünvanları vasitəsilə həyata keçirilə bilər. Məlumatın xarakteri, mahiyyəti və konfidensiallıq səviyyəsindən asılı olaraq, məlumat mübadiləsi yazılı formada, sifarişli məktubla və ya Tərəflər arasında razılaşdırılmış digər üsulla da həyata keçirilə bilər.

10.2. Kuratorun elektron poçt ünvanından, I Sığortalının rəsmi korporativ domenli elektron poçt ünvanından və/və ya I Sığortalı tərəfindən Sığortaçıya rəsmi əlaqə vasitəsi kimi bildirilmiş elektron poçt ünvanından Sığortaçıya daxil olan məlumatlar I Sığortalı tərəfindən təqdim edilmiş rəsmi məlumat hesab olunur.

10.3. I Sığortalının fəaliyyət istiqaməti, sektor aidiyyəti, rezidentlik statusu, iqtisadi fəaliyyət növü, Kurator barədə məlumatlar, bank rekvizitləri, əlaqə məlumatları və HYS məhsulunun tətbiqinə təsir edə biləcək digər hallar barədə bu maddədə nəzərdə tutulmuş kommunikasiya kanalları üzərindən Sığortaçıya təqdim edilən məlumat və sənədlər I Sığortalının rəsmi məlumatı/bəyanı kimi qəbul edilir. I Sığortalı qəbul edir ki, həmin məlumat və sənədlər əsasında Sığortaçı tərəfindən müvafiq dəyişikliklərin və əməliyyatların həyata keçirilməsi I Sığortalının müraciəti əsasında icra edilmiş hesab olunur.

10.4. Sığortaçı təqdim edilmiş məlumat və sənədlərin məzmunu, düzgünlüyü, tamlığı və ya aktuallığı, habelə həmin məlumat və sənədləri təqdim edən şəxsin buna səlahiyyətli olub-olmaması ilə bağlı əsaslı şübhə yarandıqda əlavə təsdiqedici sənəd və/və ya məlumat tələb edə bilər.

10.5. I Sığortalı Sığortaçı tərəfindən ona təqdim edilmiş məlumatların II Sığortalıya çatdırılacağına təminat verir.

10.6. I Sığortalı Sığortaçı ilə həyatın yaşam sığortası üzrə əməkdaşlıq edərək sığorta müqaviləsi bağladığı və həmin müqavilənin qüvvədə olduğu dövrdə Sığortaçını sığorta müqaviləsinin şərtlərinə təsir edə biləcək bütün hallar barədə xəbərdar etməlidir.

10.7. I Sığortalı tərəfindən təqdim edilən, ona məxsus olan və ya istifadəsində olan elektron poçt ünvanı, mobil nömrə, ünvan, habelə Sığortaçı tərəfindən onun istifadəsinə verilən Şəxsi Kabinet, Mobil tətbiqetmə və digər kommunikasiya kanalları vasitəsilə I Sığortalıya sığorta müqavilələri barədə məlumatlarlar, habelə sığorta məhsulları, xüsusi təkliflər, reklam, sığorta münasibətlərinin təkmilləşdirilməsi ilə əlaqədar dəyişikliklər, yeniliklər barədə və məlumat xarakterli digər bildirişlər göndərilə bilər.

11. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

11.1. Tərəflər bu ÜŞT-dən irəli gələn öhdəliklərin yerinə yetirilməməsi və ya lazımi qaydada yerinə yetirilməməsinə görə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

11.2. I Sığortalı Sığortaçıya təqdim etdiyi məlumatların/sənədlərin doğruluğuna, tamlığına və aktuallığına görə məsuliyyət daşıyır və həmin məlumatlarda/sənədlərdə dəyişiklik baş verdikdə bu barədə Sığortaçını dərhal məlumatlandırmalıdır. Həmin məlumatların/sənədlərin I Sığortalı tərəfindən bu ÜŞT-də, müvafiq HYS şəhadətnaməsində və/və ya Sığortaçının müraciətində müəyyən edilmiş

müddətlərdə və qaydada təqdim edilməməsi, habelə səhv, natamam və ya aktual olmayan şəkildə təqdim edilməsi nəticəsində yaranan hallara görə Sığortaçı məsuliyyət daşımır.

12. KONFİDENSİALLIQ

12.1. Tərəflər bu ÜŞT-yə əsasən öz üzərlərinə düşən öhdəliklərini yerinə yetirə bilmələri üçün müvafiq vaxt çərçivəsində tələb olunan bütün zəruri məlumatları bir-birlərinə təqdim edirlər. Tərəflər məlumatların təqdim edilməsi, əldə edilməsi, saxlanılması, istifadəsi və ötürülməsi zamanı "Kommersiya sirri haqqında", "Fərdi məlumatlar haqqında", "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunlarının və digər tətbiq olunan normativ hüquqi aktların tələblərinə riayət etməlidirlər.

12.2. Tərəflər qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla, bir-birlərindən əldə etdikləri məxfi məlumatın məxfiliyini qorumalı, heç bir üçüncü tərəfə verməməli və ya açıqlamamalıdır.

12.3. Tərəflərin məxfi məlumatların qorunması üzrə öhdəlikləri HYS üzrə əməkdaşlığa xitam verildikdən sonra müddətsiz olaraq qüvvədə qalır.

12.4. Qanunvericiliklə müəyyən olunan hallara əlavə olaraq, bu ÜŞT çərçivəsində Tərəflərin bir-biri ilə hər hansı formada bölüşdüyü, habelə Tərəflərdən birinə məlum olan maliyyə cədvəlləri, hesabatlar, maliyyə və hüquqi xarakterli məlumatlar, HYS məhsulunun tətbiqi, iş modeli, əməkdaşlıq mexanizmi və tərəfdaş layihələr barədə məlumatlar, məhsul və xidmətlərlə bağlı ictimaiyyətə və ya üçüncü şəxslərə açıqlanmamış məlumatlar, kommersiya sirri təşkil edən məlumatlar, marka, məhsul, tarif, iş modeli və "know-how" ilə bağlı məlumatlar, Şəxsi Kabinet, Mobil tətbiqetmə, informasiya sistemlərinə giriş məlumatları, istifadəçi məlumatları, habelə açıqlanması Tərəfin qanuni maraqlarına xələl gətirə biləcək digər məlumatlar məxfi məlumat hesab edilir.

12.5. Bu ÜŞT-nin 12.4-cü bəndində göstərilmiş öhdəliklər artıq ictimaiyyətə məlum olan və/və ya məlumatı alan şəxsin konfidensiallıq öhdəliyi olmadan artıq xəbərdar olduğu; və ya müstəqil şəkildə hazırladığı; və ya konfidensiallıq öhdəliyi olmadan hər hansı bir üçüncü şəxsdən hüquqi əsaslarla əldə etdiyi məlumata tətbiq edilmir.

12.6. Tərəflərin həyatın yaşam sığortası üzrə məsul təyin edilmiş əməkdaşları (kurator) sığortalanmış şəxslərin fərdi və sığorta məlumatlarını yalnız sığorta əməliyyatlarının həyata keçirilməsi məqsədilə istifadə etməlidir.

12.7. I Sığortalı Kuratorun əmək və ya mülki-hüquqi müqaviləsinə xitam verilərsə, həmin əməkdaşdan sığorta sirri təşkil edən bütün yazılı və ya elektron sənədləri, həmçinin Şəxsi kabinetdən və Mobil tətbiqetmədən istifadə üçün verilmiş istifadəçi kodu və şifrəni təhvil almalı və bundan əmin olmalıdır.

12.8. Tərəflər bu ÜŞT-nin icrası ilə əlaqədar səlahiyyətləndirdiyi məsul şəxslərə bu maddədə nəzərdə tutulan konfidensiallıq (məxfilik) öhdəliklərini qəbul etdirməlidirlər. Tərəflər konfidensial məlumatı ötürdüyü belə şəxslərin bu öhdəliyi pozmasına səbəb olan hərəkətləri və ya hərəkətsizliyinə, konfidensial məlumatların, bank və ya sığorta sirrinin yayılmasına görə məsuliyyət daşıyır.

12.9. Bu ÜŞT-yə vaxtından əvvəl xitam verilməsi Tərəfləri bu ÜŞT-nin 12-ci maddəsinin tələblərinə riayət edilməməsinə görə məsuliyyətdən və müvafiq olaraq dəymiş zərərin əvəzinin ödənilməsindən azad etmir.

12.10. Hər bir Tərəf digər Tərəfə təqdim etdiyi məlumat və sənədlərin təqdim edildiyi tarixə aktual, tam və düzgün olduğunu təsdiq edir və həmin məlumat və sənədlərin aktuallığının, tamlığının və düzgünlüyünün təmin edilməsinə görə məsuliyyət daşıdığını qəbul edir. Təqdim edilmiş məlumat və sənədlərdə hər hansı dəyişiklik baş verdikdə, müvafiq Tərəf bu barədə digər Tərəfi dərhal məlumatlandırmalı və yenilənmiş məlumat və sənədləri təqdim etməlidir.

12.11. Tərəflər arasında məxfilik öhdəliklərinin tənzimlənməsinə dair ayrıca müqavilə imzalandığı halda, həmin müqavilə bu ÜŞT ilə birlikdə tətbiq edilir. Həmin müqavilənin müddəaları ilə bu ÜŞT-də müəyyən edilmiş məxfilik öhdəlikləri arasında ziddiyyət və ya uyğunsuzluq yarandıqda, bu ÜŞT-nin müvafiq müddəaları üstün hüquqi qüvvəyə malikdir.

13. ÜŞT-NİN QÜVVƏYƏ MİNMƏSİ, QƏBUL EDİLMƏSİ, MÜDDƏTİ VƏ I SIĞORTALIYA MÜNASİBƏTDƏ TƏTBİQİNİN DAYANDIRILMASI

13.1. Bu ÜŞT müvafiq versiya üzrə Sığortaçı tərəfindən təsdiq edildiyi tarixdən qüvvəyə minir və Sığortaçı tərəfindən ləğv edilənədək və ya yeni versiya ilə əvəz edilənədək qeyri-müəyyən müddətə qüvvədə qalır.

13.2. ÜŞT-ni qəbul etmək istəyən şəxs bu ÜŞT-də nəzərdə tutulmuş şərtlərlə tanış olduğunu və onları qəbul etdiyini təsdiq etmək məqsədilə Bəyanatı imzalayır. Həmçinin, I Sığortalı Bəyanatı imzalamaqla Sığorta qaydaları ilə tanış olduğunu təsdiq edir.

13.3. Bəyanat I Sığortalı tərəfindən kağız daşıyıcıda və ya elektron sənəd formatında imzalandığı (təsdiqləndiyi) tarixdən qüvvəyə minir və müddətsiz olaraq qüvvədədir.

13.4. İmzalanmış Bəyanatın Sığortaçıya təqdim edilməsi I Sığortalı tərəfindən bu ÜŞT-nin tam və qeyd-şərtsiz qəbul edilməsi (aksepti) hesab edilir. Həmin tarixdən etibarən ÜŞT I Sığortalıya münasibətdə tətbiq edilir və I Sığortalı üçün ÜŞT-dən irəli gələn hüquq və öhdəliklər yaranır.

13.5. ÜŞT-nin Sığortalıya münasibətdə tətbiqi həmin Sığortalı ilə ÜŞT çərçivəsində bağlanmış sonuncu qüvvədə olan HYS şəhadətnaməsi üzrə sığorta təminatının müddəti başa çatanadək davam edir.

14. ÜŞT-YƏ ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ

14.1. Bu ÜŞT Sığortaçı tərəfindən təsdiq edilən və HYS məhsulu üzrə münasibətlərə standart qaydada tətbiq edilən şərtləri müəyyən edir. ÜŞT-nin müddəaları I Sığortalı tərəfindən fərdi qaydada dəyişdirilə bilməz.

14.2. ÜŞT-yə əlavə və dəyişikliklər Sığortaçı tərəfindən yeni versiyanın təsdiq edilməsi yolu ilə həyata keçirə bilər. Yeni versiya Sığortaçının rəsmi internet səhifəsində, Şəxsi Kabinetdə və Mobil tətbiqetmədə yerləşdirilir.

14.3. ÜŞT-nin yeni versiyası barədə I Sığortalılar bu ÜŞT-də nəzərdə tutulmuş kommunikasiya kanalları vasitəsilə məlumatlandırılır və həmin yeni versiya qüvvəyə mindiyi tarixdən etibarən onlara da şamil edilir.

15. TƏTBİQ EDİLƏN HÜQUQ VƏ MÜBAHİSƏLƏRİN HƏLLİ

15.1. Bu ÜŞT Azərbaycan Respublikasının qanunları ilə şərh edilir və tənzimlənir.

15.2. Bu ÜŞT-dən irəli gələn və ya onunla əlaqədar yaranan bütün mübahisələr danışıqlar yolu ilə həll edilməlidir. Tərəflərdən hər hansı birinin müvafiq bildirişinin digər Tərəfə daxil olduğu tarixdən 30 (otuz) təqvim günü ərzində danışıqlar yolu ilə mübahisələrin həlli mümkün olmadıqda, Tərəflər Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş mübahisələrin məhkəməyəqədər həlli yollarından istifadə edə bilər.

15.3. ÜŞT-nin 15.2-ci bəndində göstərilən vasitələrlə mübahisələrin həlli mümkün olmadıqda, yaranmış mübahisələrə Azərbaycan Respublikasının aidiyyəti məhkəmələrində baxılacaqdır.

16. FORS-MAJOR HALLAR

16.1. Tərəflər öz öhdəliklərini tam və ya qismən icra etmədiklərinə görə məsuliyyətdən o vaxt azad olunurlar ki, bu icra etməmə Tərəflərin iradəsindən asılı olmayan, əvvəlcədən görə bilmədikləri və təsirinə mane ola bilmədikləri, bu ÜŞT və ya sığorta müqaviləsinin bağlanmasından sonra yaranmış qarşısıalınmaz – fors major halların təsirindən əmələ gəlmiş olsun. Bu cür hallara daşqın, zəlzələ, yanğın, partlayış və digər təbii fəlakət və fövqəladə hallar; elan edilmiş və ya edilməmiş vəba, epidemiya, pandemiya; elan edilmiş və ya edilməmiş müharibə və hərbi əməliyyatlar, vətəndaş qarşıdurması, matəm, iğtişaş və üsyanlar, terror aktları; hər hansı silahlı hücum, telekommunikasiya və informasiya sistemlərinin uzunmüddətli sıradan çıxması, lokaut, tətil, boykot və başqa bu kimi hallar; Tərəflərin münasibətlərini bilavasitə dəyişdirən qanunvericilikdə dəyişikliklər, səlahiyyətli orqanların bu ÜŞT-nin və sığorta müqaviləsinin icrasının mümkünsüzlüyünə səbəb olan hərəkətləri və ya qəbul etdikləri aktları; habelə burada qeyd edilməyən, lakin Tərəflərin iradəsindən kənar olan və öz öhdəliklərini icra etməsinə mane olan digər qarşısıalınmaz hallar aiddir.

16.2. Bu ÜŞT-nin 16.1-ci bəndində göstərilən səbəblərdən bu ÜŞT-nin və ya sığorta müqaviləsinin icrası mümkün olmadıqda, öhdəliklərin icrası qarşısıalınmaz qüvvənin davam etdiyi müddətə uzadılır.

16.3. Fors-major halların baş verdiyi zaman, öhdəliyi yerinə yetirə bilməyən tərəf 5 (beş) iş günü ərzində yazılı şəkildə digər tərəfi bu barədə məlumatlandırmalı, baş vermiş fors-major halın öhdəliklərini yerinə yetirə bilməməsinə necə təsir etdiyini əsaslandırmalı və bu halı müvafiq sənədlərlə təsdiq etməlidir. Baş vermiş hal öhdəliyin tam olaraq yerinə yetirilməməsinə səbəb deyildirsə, tərəflər bu ÜŞT və ya sığorta müqaviləsi üzrə öhdəliklərini həyata keçirməlidir.

16.4. Tərəflərin maddi vəziyyətinin və iqtisadi göstəricilərinin pisləşməsi fors-major hallara aid edilə bilməz.

16.5. Tərəfi xəbərdar etməmə digər Tərəfi gələcəkdə 16.1-ci bənddə göstərilən hər hansı bir hala istinad etmək hüququndan məhrum edir.

17. YEKUN MÜDDƏALAR

17.1. Ümumi sığorta haqqı I Sığortalı tərəfindən bank vasitəsilə Sığortaçının Bəyanatda göstərilən bank hesabına ödənilir.

17.2. Bu ÜŞT-nin hər hansı müddəasının etibarsızlığı, digər müddəaların və bütövlükdə ÜŞT-nin etibarsızlığına gətirib çıxarmır. Hər hansı müddəanın və ya bütövlükdə ÜŞT-nin etibarsızlığı yalnız məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə mümkündür.

17.3. Hazırkı ÜŞT-də "yazılı" dedikdə, müvafiq sənədin onun məzmununu dəyişilməz formada maddi daşıyıcıda əks etdirməyə imkan verən elektron və ya digər texniki vasitələrin köməyi ilə tərtib edilməsi və/və ya təqdim edilməsi də nəzərdə tutulur və bu halda yazılı formaya riayət edilmiş hesab edilir.

17.4. Tərəflər zəmanət verirlər ki, onlar hər hansı korrupsiya əməllərinin və hər hansı digər qeyri-qanuni məsələlərin həlli üçün müvafiq ödənişlərin və ya digər güzəşt və imtiyazların tam qadağan edilməsi və qanuniliyin, şəffaflığın və səmərəliliyin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə və habelə qəbul edilmiş beynəlxalq etik standartlara riayət etməli, rüşvətxorluq və korrupsiyaya qarşı tam "dözülməzlik" prinsipini rəhbər tutmalıdırlar. Eyni zamanda, Tərəflər bəyan edirlər ki, onlar işgüzar fəaliyyətlə məşğul olduqları bütün ölkələrdə rəqabət haqqında müvafiq qanunlara riayət edəcəklər. Həmçinin, Tərəflər öz gündəlik fəaliyyətlərində rüşvətxorluq və korrupsiyaya qarşı mübarizə ilə bağlı qanunvericiliyə uyğun olaraq işlənib hazırlanmış bütün daxili siyasət və prosedurlara riayət etməyi öz öhdələrinə götürürlər.

17.5. Bəyanatda göstərilən Sığortaçının rekvizitləri hesab olunan məlumatlarda dəyişiklik olduğu təqdirdə, Sığortaçı bu barədə Bəyanata əlavə və dəyişiklik etmədən I Sığortalını 5 (beş) iş günü ərzində xəbərdar edir və Tərəflər həmin dəyişikliklərin qüvvədə olmasını xəbərdar edilmə tarixindən əsas götürür.

17.6. Sığortaçı Sığortalıya daha geniş istiqamətdə xidmət göstərmək üçün Sığortalı barədə məlumatları ona heç bir zərər vurmamaq, habelə yayılmaması üçün məsuliyyət daşımaqla müxtəlif informasiya ehtiyatlarından əldə edə, habelə Sığortalının məlumatlarını (sığorta sirri təşkil edən məlumatları daxil olmaqla) öz işçilərinə, nümayəndələrinə, ona hüquqi və digər xidmət göstərən digər şəxslərə, özünə aidiyyəti olan şəxslərə, sığorta fəaliyyətini həyata keçirərkən ondan tələb edən dövlət orqanlarına, maliyyə bazarlarına nəzarəti həyata keçirən orqanlara, ölkədaxili və ya transsərhəd qaydada ötürə, Şəxsi Kabinetə və ya Mobil tətbiqetməyə yerləşdirə bilər.

17.7. Bu ÜŞT-nin hər hansı müddəası ilə qanunvericilik arasında ziddiyyət yarandıqda həmin müddəa qüvvədən düşmüş hesab edilir və ÜŞT üzrə hərəkətlər qanunvericiliyə uyğun olaraq icra edilir.

17.8. Tərəflər bu ÜŞT üzrə əməkdaşlıq həyata keçirərkən bir-birinə qarşı vicdanlı olmalı, bir-birilərinin mənafeyinə xələl gətirə biləcək hərəkətlərə yol verməməli, hüququn "bona fides" prinsipinə, mülki qanunvericiliyinin ümumi prinsiplərinə riayət etməlidirlər.

17.9. Bu ÜŞT-də natural ədədlərlə nömrələnmiş, qalın qara şriftlə altı xətlənmiş şəkildə verilən sözlər yalnız ÜŞT-nin müvafiq hissələrinin adını bildirir, rahatlıq məqsədilə əlavə edilmişdir, ÜŞT-nin hər hansı müddəasının şərh edilməsi üçün istifadə edilə bilməz.

17.10. Bu ÜŞT-nin natural ədədlərlə nömrələnmiş bölmələri "maddə", həmin maddələrin altbölmələri "bənd", həmin bəndlərin altbölmələri "yarımbənd", həmin yarımbəndlərin altbölmələri isə "abzas" adlandırılır.

17.11. Sığortalının qarşılaşdığı çətinliklər və suallarla əlaqədar müraciətlərinin Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən operativ araşdırılması üçün aşağıda göstərilən əlaqə nömrələri vasitəsi ilə əlaqə saxlanıla bilər: Əlaqə tel: (+99412) 4935058, qaynar xətt: (+99412) 966.